BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 *Humanitar elmlər seriyası* 2008

# ERMƏNİSTAN SSR ƏHALİSİNİN TƏKRAR İSTEHSAL MƏSƏLƏSİNƏ DAİR

**Ş.F.FƏRƏCOV**
***Bakı Dövlət Universiteti***

Əhalinin təkrar istehsalı anlayışının məzmununu araşdırsaq, qeyd etmək lazımdır ki, demoqrafiya siyasəti əhalinin təkrar istehsalının tənzimlənməsi ilə sıx surətdə bağlıdır. Demoqrafiya siyasəti əhali siyasətinin əsasını təşkil edir. Əhalinin təkrar istehsalı anlayışının məzmununu araşdırdıqda, burada müəyyən mübahisələr meydana çıxır. Əhalinin təkrar istehsalına müxtəlif cür yanaşma var. Təkrar istehsala «dar» yanaşmaya görə o, nəsillərin fasiləsiz yeniləşməsi prosesi, insanların çoxalması və ölümünün ikitərəfli prosesi kimi şərh edilir (1, s. 21-22).

Əhalinin «geniş» anlayışına görə o, hərəkətin üç formasının cəmi kimi çıxış edir: təbii (doğum və ölüm), məkan (miqrasiya) və sosial (sosial strukturun dəyişməsi sosial və professional mobillik və i.a.) (2, s. 79).

V.M.Medkova görə əhalinin təkrar istehsalı doğum və ölüm vasitəsilə insan nəsillərinin dəyişməsi prosesində əhalinin sayı və strukturunun daimi yeniləşməsidir (3, s. 298).

Qeyd etmək lazımdır ki, demoqrafiya siyasətinin məzmununa dair müxtəlif baxışlar mövcuddur. Bu əhalinin təkrar istehsalı anlayışının məzmununa baxışların fərqli olmasından irəli gəlir. Əhalinin təkrar istehsalı onun təbii təkrar istehsalı kimi düşündükdə demoqrafiya siyasəti doğuma və ölümə təsir edən tədbirlər kimi də baxılır. Əhalinin təkrar istehsalına və demoqrafiya siyasətinə daha geniş baxımdan yanaşdıqda, bura əhalinin keyfiyyət və səciyyəsi də (yaş-cins, təhsil, peşə, sahə məşğuliyyəti, sağlamlıq və s.) daxil edilir. Əlbəttə, əhali sakinliyi ilə bağlı olan bütün tədbirləri demoqrafiya siyasətinə aid etmək olmaz. Bu siyasət bilavasitə əhalinin optimal təkrar istehsalına yönəldilən tədbirlərdən ibarətdir (4, s.237).

Müəyyən sosial mühitdə doğumun tezliyini təyin edən amil doğum adlanır. Doğuma təsir etmək demoqrafiya siyasətinin əsas vəzifələrindən biridir. Doğumun göstəriciləri kimi ümumi və xüsusi əmsallardan istifadə olunur.

Qərbi Azərbaycanda yaşayan azərbaycanlılar arasında doğumun səviyyəsi aşağı idi. Bu onunla izah oluna bilər ki, XIX əsrin sonlarında XX əsrin əvvəllərində car Rusiyası tərəfindən aparılan siyahıyaalmalarda azərbaycanlıların sayı az göstərilməklə yanaşı, anadan olan qız uşaqlarının qeydiyyatı qənaətbəxş deyildi. Çox maraqlıdır ki, 1923-cü ildə azərbaycanlılar arasında doğumun səviyyəsi həm əvvəlki illərə nisbətən xeyli artmış, həm də erməni və digər qonşu millətlərin doğum səviyyəsinə görə doğum əmsalının ən yüksək həddinə çatmışdır. 1941-1945-ci

illər ərzində Sovet İttifaqı ilə faşist Almaniyası arasında gedən müharibə zamanı bütün Sovetlər birliyində yaşayan millətlər kimi Qərbi azərbaycanlılar arasında da doğumun səviyyəsi çox aşağı düşmüşdür. Bu onunla izah olunurdu ki, kişilərin əksəriyyəti cəbhəyə getmişdi. Qərbi azərbaycanlılar arasındakı demoqrafik vəziyyəti dəqiqliklə təyin etmək olmur. Ona görə ki, müharibə dövründə, 1941-1945-ci illərə aid Ermənistan SSR üzrə heç bir statistik məlumat yoxdur.

Doğum əmsalının azalması demək olar ki, SSRİ-nin dağılmasına qədər aşağı düşmüşdür. Ermənistanda yaşayan erməni, rus və digər millətlər arasında doğum əmsalı azərbaycanlılara nisbətən xeyli aşağı düşmüşdür. Ermənistan SSR üzrə verilən statistik məlumatları nəzərdən keçirdikdə məlum olur ki, ermənilər arasında doğum əmsalı kəskin surətdə aşağı düşmüşdür. Doğumun illik əmsalı 8-9%-ə qədər enmişdir (5, s.142).

Ayrı-ayrı respublikalarda hazırlanan doğum haqda siyasət və onun həyata keçirilməsi hər şeydən əvvəl bütövlükdə demoqrafik situasiyanın, o cümlədən doğumun aşağı düşməsi səbəblərinin aşkar edilməsini tələb edir. Mövcud olan demoqrafik ədəbiyyatda doğum səviyyəsinə təsir göstərən amil tam həllini tapmışdır (6, s.63).

Ailələrdə uşaqların sayının yüksəldilməsi əhalinin mədəni, xüsusilə təhsil səviyyəsinin yüksəldilməsilə əlaqədə diqqət mərkəzində olmuşdur.

Adətən mədəni və təhsil səviyyəsi yüksək olan ailələrdə uşaqların sayı az olur. Lakin bu heç də o demək deyildir ki, doğum tənzimlənməsi üçün əhalinin mədəni səviyyəsi aşağı salınmalıdır. Əhalinin mədəni və elmi səviyyəsinin yüksəldilməsi əhalinin keyfiyyətinİn əsas şərtlərindəndir. Doğumun aşağı düşməsi faktorlarından biri də qadınların məşğulluğunun artması, onların sosial-siyasi fəaliyyətə geniş cəlb edilməsidir. Doğum üçün əsas faktorlardan biri də ailədə vəziyyət və onun stabilliyidir. İqtisadi durumla əlaqədar olaraq nikah bağlayanların kəskin azalması, boşanma hallarının artması da doğumun aşağı düşməsinə təsir göstərir.

Doğumun aşağı düşməsinin özü isə təsirsiz qalmır. O, müəyyən sosial-iqtisadi, demoqrafik və digər nəticələr yaradır.

Əhalinin təkrar istehsalının alt proseslərindən biri olan doğumun tənzimlənməsi dövlətin qarşısında duran başlıca vəzifələrdəndir. Ermənistanda yaşayan azərbaycanlılar 1920-1980-cı illər dövründə doğum problemləri ilə əlaqədar heç bir yardım almamışlar.

Ailənin vəziyyəti, dövlətin doğuma təsir göstərməsinin başlıca formasıdır. Ailə, onun hüquqi normaları, müəyyən dərəcədə demoqrafik proseslər, o cümlədən doğumun tənzimlənməsi ilə bağlıdır.

Əhalinin təkrar istehsalının digər alt prosesi ölümdür. Ölüm demoqrafiyada nəslin ölməsi prosesini nəzərdə tutur. Bu proses kütləvi statistik proses kimi öyrənilir. Digər anlayışa görə ölüm sosial mühitdə ölüm hallarının tezliyidir. İnsanın doğulması müsbət hal kimi qəbul edilərək əhalinin artması ilə əlaqədardısa, ölüm neqativ hadisə olub, nəslin ölməsi, əhalinin demoqrafik sayının azalması ilə bağlıdır. Demoqrafiya siyasəti doğumun tənzimlənməsi, onun artırılmasını əsas götürürsə, ölümə münasibətdə spesifik mövqe tutmalıdır. Ölümlə əlaqədar siyasətə və s. anlayışlara təsadüf edilmir. Burada görülən işlər, əsasən, birbaşa deyil, dolayı yol ilə ölümün azalmasına və orta ömür uzunluğunun çoxalmasına təsir edir. Ölüm hallarının azalması və nizamlanması üçün səviyyə sis-

teminin gücləndirilməsi, sağlam ətraf mühitİn yaradılması, ərzaq problemlərinin aradan götürülməsi, ölümün səbəblərinin azaldılması və s. tədbirlərin həyata keçirilməsi vacib məsələdir.

Demoqrafiya siyasətinin spesifik sahəsi olan ölümün öyrənilməsi üçün müəyyən göstəricilər sistemindən istifadə olunur. Bu göstəricilər iki yerə bölünür: mütləq və nisbi. Ən geniş istifadə olunan nisbi göstəricilərdən biri ölümün ümumi əmsalıdır. Araşdırdığımız bütün ədəbiyyatlarda və sənədlərdə Ermənistan SSR-də yaşayan azərbaycanlılar arasında ölümün əmsalı Sovet hakimiyyəti qurulmamışdan əvvəl yüksək olmuşdur. Bu onunla izah olunur ki, Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların həyat şəraiti pis vəziyyətdə idi və adambaşına düşən həkim-feldşer məntəqələri çox az sayda idi. İnsanlar adi xəstəliklərdən məhv olurdu. Sovet hakimiyyəti qurulduqdan sonra ölüm halları nisbətən azalmış, insanlara tibbi köməklər çoxalmışdı.

Cədvəl 15

**Əhalinin təbii artımı /orta hesabla min nəfərə düşən/**

| **İllər** | **doğum** | **ölüm** | **mütləq artım** |
|---|---|---|---|
| 1940 | 41,2 | 13,8 | 27,4 |
| 1950 | 32,1 | 8,5 | 23,6 |
| 1955 | 36,1 | 9,0 | 27,1 |
| 1960 | 40,3 | 6,8 | 33,5 |
| 1964 | 30,7 | 5,9 | 24,8 |

1959-cu ildə Ermənistan SSR-də 1763000 nəfər əhali yaşamışdır.

1965-ci ilin yanvarın 1-nə olan məlumata görə, Ermənistanda 2134000 nəfər yaşamışdır. 1959-1965-ci illər dövründə əhalinin orta illik artımı 62000 nəfər olmuşdur (7, s.80).

Bu dövrlərdə əhalinin sürətli artmasına səbəb olan amillər:

1. Əhali arasında ölüm hallarının azalması, təbii artımın çoxalması.

2. SSRI ərazisinin avropa hissəsindəki əhalinin sıx yaşadığı ərazilərdən əhalinin ermənistan ərazisindəki sənaye obyektlərinə köçürülməsi.

3. Avropa, Asiya və Afrikadan ermənilərin Ermənistan ərazisinə böyük güzəştlər vəd etmək yolu ilə köçürülüb gətirilməsi.

Kişilər 47,8 faiz, qadınlar 52,2 faiz, Ermənistan əhalisinin cinsi tərkibi belə idi.

1959-cu ildə on beş yaşına qədər uşaqların sayı 37,4 %, əmək qabiliyyəti olan əhalinin / kişilər – 16-59 yaşına qədər, qadınlar – 16-54 yaşına qədər / sayı 52,6 %, yaşlı nəsil nümayəndələri isə bütün əhalinin – 10,0 %-ni təşkil edirdilər. 1959-cu ildə Ermənistanda 100 yaş və 100 yaşdan yuxarı olan əhalinin sayı 578 nəfər idi. Onlardan 219 nəfəri kişi, 359 nəfəri isə qadındır.

Əhalinin orta sıxlıq həddi 1 kv. km sahəyə 72 nəfər düşürdü. Əhalisi daha sıx olan rayonlarda, Vedi, Artaşat, Irəvan, Eçmiədzin, Arzini və Leninakan /Gümrü/ rayonlarında hər kv. km-ə – 100-200 nəfər əhali düşürdü. ölkənin şimal rayonlarında və Aparan, Razdan, Savan, Kamo, Martuni, Dilican rayonlarında 1 kv.km-ə 50 nəfərdən 100 nəfərə qədər əhali düşürdü. Sovet hökuməti illərində Ermənistanda şəhər və kənd əhalisinin sayında və yerləşməsində ciddi dəyişikliklər baş vermişdir. Şəhər əhalisi 1926-cı ilə 167 min nəfərdən artaraq 1939-cu ildə 366 min nəfərə çatmışdır. 1959-cu ildə 882 min nəfərdən artaraq 1964-cü ildə 1124 min nəfərə çatmış və yaxud ümumi əhalinin 54 faizinə çatmışdır.

Ermənistanın iri şəhərləri: Irəvan – 623 min nəfər əhalisi /1965/, Leninakan – 123 min nəfər, Kirovakan – 66 min nəfər, Eçmiədzin 24 min nəfər, əhalisi /hamısı 1964-cü ilə aiddir/ var idi. 1959-cu ildə bütün əhalinin 39,8 faizi müstəqil əməklə məşğul olurdular /kişilər arasında – 48,5 faizi, qadınlar arasında – 32,0 faizi/; müstəqil əməklə məşğul olan əhalinin 45,7 faizi kənd təsərrüfatında məşğul olurdular, 30,6 faizi isə sənaye və nəqliyyatda çalışırdılar.

Cədvəl

**1939, 1959, 1970, 1979-cu illərdə keçirilən siyahıyaalmaya görə Ermənistanda şəhər və kənd əhalisinin artım fərqi**

| | ümumi əhali /min nəfər/ | o cümlədən | | ümumi əhaliyə görə faizlə | |
|---|---|---|---|---|---|
| | | şəhər | kənd | şəhər | kənd |
| 1913 | 1000,1 | 104,0 | 896,1 | 10 | 90 |
| 1939 | 1282,3 | 366,4 | 915,9 | 29 | 71 |
| 1959 | 1763,1 | 881,9 | 881,2 | 50 | 50 |
| 1970 | 2491,9 | 1481,5 | 1010,4 | 59 | 41 |
| 1979 | 3030,7 | 1992,5 | 1038,2 | 66 | 34 |

Cədvəldən göründüyü kimi, 1913-cü ildən 1979-cu ilə qədər bir dövrdə şəhər əhalisi artıb, kənd əhalisi isə kəskin surətdə azalıb. Kənd əhalisinin kəskin surətdə azalmasının əsas səbəbi azərbaycanlıların köçürülüb qovulması və onlara məxsus kənd təsərrüfatı sahələrinin dəyişdirilib onlara xas olmayan sahələrlə əvəz edilməsidir. Məsələn: qoyunçuluq və maldarlığı azaldaraq yerində donuzçuluğu inkişaf etdirirdilər.

Bu isə öz növbəsində, əsasən azərbaycanlılardan ibarət olan əhalinin digər şəhərlərə, digər regionlara köçüb getməsinə səbəb olurdu (8, s.16).

Cədvəl

**1980-ci illərdə əhalinin inkişafının ümumi göstəriciləri**

| | doğulanların sayı | | | ölənlərin sayı | | | mütləq artım | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | ümumi əhali | şəhər əhalisi | kənd əhalisi | ümumi əhali | şəhər əhalisi | kənd əhalisi | ümumi əhali | şəhər əhalisi | kənd əhalisi |
| 1980 | 70324 | 43997 | 26327 | 17124 | 10515 | 6609 | 53200 | 33482 | 19718 |
| 1981 | 73682 | 46034 | 27648 | 16659 | 10391 | 6268 | 57023 | 35643 | 21380 |
| 1982 | 74225 | 45804 | 28421 | 17469 | 10980 | 6489 | 56756 | 34824 | 21932 |
| 1983 | 76436 | 46747 | 29689 | 18369 | 11501 | 6868 | 58067 | 35246 | 22821 |
| 1984 | 79767 | 49071 | 30696 | 19043 | 11814 | 7229 | 60724 | 37257 | 23467 |
| 1985 | 80306 | 49287 | 31028 | 19581 | 12075 | 7506 | 60725 | 37203 | 23522 |
| 1986 | 81192 | 50124 | 31068 | 19410 | 11936 | 7474 | 61782 | 38188 | 23594 |
| 1987 | 78492 | 47711 | 30781 | 19727 | 12425 | 7302 | 58765 | 35286 | 23479 |
| 1988 | 74707 | 47639 | 27068 | 35567 | 26741 | 8826 | 39140 | 20898 | 18242 |

Yuxarıda göstərilən cədvəldə ümumi əhalinin sayı tərkibində azərbaycanlıların da sayı var. Baxmayaraq ki, 1988-ci ilin ilk aylarından yerli azərbaycanlılara qarşı zorakılıq artıq başlamışdır. 1988-ci ilin yanvarın axırlarından fevralın axırlarına qədər artıq beş minə yaxın azərbaycanlı öz vətənlərindən qovulmuşlar. İlkin qovulmalar münaqişənin "qeyri-aşkar" dövrü olduğundan 1988-ci ildə dövlət tərəfindən aparılan siyahıyaalma zamanı azərbaycanlıların sayı düzgün verilə bilməzdi.

Cədvəl

**Kişilərlə qadınlar arasında doğulanların və ölənlərin sayı**

| | doğulanların sayı | | | ölənlərin sayı | | |
|---|---|---|---|---|---|---|
| | kişilər və qadınlar | kişilər | qadınlar | kişilər və qadınlar | kişilər | qadınlar |
| 1985 | 80306 | 40778 | 39528 | 19581 | 9977 | 9604 |
| 1986 | 81192 | 41713 | 39479 | 19410 | 9974 | 9436 |
| 1987 | 78492 | 40649 | 37843 | 19727 | 10089 | 9638 |
| 1988 | 74707 | 38261 | 36446 | 35567 | 16594 | 18973 |

Cədvəl

**1980-ci illərdə əhalinin inkişafının ümumi göstəriciləri /faizlə/**

| | doğulanların sayı | | | ölənlərin sayı | | | mütləq artım | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | ümumi əhalisi | şəhər əhalisi | kənd əhalisi | ümumi əhali | şəhər əhalisi | kənd əhalisi | ümumi əhalisi | şəhər əhalisi | kənd əhalisi |
| 1980 | 22,7 | 21,5 | 25,1 | 5,5 | 5,1 | 6,3 | 17,2 | 16,4 | 18,8 |
| 1981 | 23,4 | 22,0 | 26,3 | 5,3 | 5,0 | 6,0 | 18,1 | 17,0 | 20,3 |
| 1982 | 23,2 | 21,5 | 26,8 | 5,5 | 5,1 | 6,1 | 17,7 | 16,4 | 20,7 |
| 1983 | 23,6 | 21,5 | 27,8 | 5,7 | 5,3 | 6,4 | 17,9 | 16,2 | 21,4 |
| 1984 | 24,2 | 22,1 | 28,6 | 5,8 | 5,3 | 6,7 | 18,4 | 16,8 | 21,9 |
| 1985 | 24,1 | 21,8 | 28,8 | 5,9 | 5,3 | 7,0 | 18,2 | 16,5 | 21,8 |
| 1986 | 24,0 | 21,8 | 28,7 | 5,7 | 5,2 | 6,9 | 18,3 | 16,6 | 21,8 |
| 1987 | 22,9 | 20,4 | 28,2 | 5,7 | 5,3 | 6,7 | 17,2 | 15,1 | 21,5 |
| 1988 | 21,0 | 20,2 | 24,7 | 10,3 | 11,3 | 8,1 | 11,3 | 8,9 | 16,6 |

Cədvəl

**1917-1989-cu illərdə ermənistan əhalisinin sayı və milli tərkibi (9, s.75).**

| illər | əhalinin ümumi sayı | azərbaycanlılar | % | ermənilər | % |
|---|---|---|---|---|---|
| 1917 | 212458 | 129586 | 61,0 | 80530 | 38 |
| 1922 | 781011 | 76539 | 9,8 | 671513 | 85,98 |
| 1926 | 880464 | 83181 | 9,4 | 743571 | 84,5 |
| 1937 | 1209456 | 124434 | 10,2 | 1009004 | 83,4 |
| 1959 | 1763048 | 107748 | 6,1 | 1551610 | 88 |
| 1970 | 2491873 | 148189 | 5,9 | 2208372 | 88,6 |
| 1979 | 3037259 | 160841 | 5,3 | 2724975 | 89,7 |
| 1987 | 3280000 | 210000 | 6,4 | 3070000 | 93,6 |
| 1989 | 3283000 | 1500 | 0,01 | 3281000 | 99,9 |

1989-cu ildə Ermənistanda yeganə kənd Nüvədi kəndi qalırdı. Nüvədinin əhalisinin ümumi sayı 1500 nəfərdən ibarət idi.

1917-ci ildən 1989-cu ilə qədər əhalinin demoqrafik vəziyyətini nəzərdən keçrdikdən sonra azərbaycanlılara qarşı dəhşətli genosidin şahidi oluruq. Bu illər dövründə 61 faizdən "türksüz ermənistan" yaradılana qədər, yəni irəvanlılar öz doğma vətənlərindən tam qovulana qədər azərbaycanlıların necə ağır həyat yolu keçdiklərinin bir daha şahidi oluruq.

1988-1990-cı illərdə Ermənistan ərazisində talanlar və soyqırımda tələf olan azərbaycanlıların siyahısını nəzərdən keçirəndə aydın olur ki, 1988-1990-cı illərdə Ermənistanda yerli azərbaycanlılara qarşı sonuncu soyqımda 214 nəfər azərbaycanlı öldürülmüşdür.

1987-ci ildən sonra başlayan kütləvi etnik təmizləmə, azərbaycanlılarla birlikdə digər millətlərin də Ermənistan ərazisindən köçüb getməsi

dövlət səviyyəsində məharətlə həyata keçirilmişdir. İndi monorespublika hesab olunan Ermənistanda ruslardan başqa çətin ki, digər millətlərin yaşaması ağlasığandır. Dünya praktikasından bizə məlumdur ki, milli şovinizmin tüğyan etdiyi bir ölkədə digər hər hansı bir millətin nümayəndəsinin yaşaması qeyri-mümkündür.

**QEYDLƏR**


1. Воспроизводство населения и демографическая политика в СССР. Отв. ред. Л.Л.Рываковский . М.: Наука, 1987, 207 с.
2. Система знаний о народонаселении. Под ред. Волентея Д.И. Высшая школа, 1991, 255 с.
3. Медков В.М. Демография. Ростов-на-Дону: «Феникс», 2002, 448 с.
4. Həsənova L.L. Azərbaycan əhalisi XX yüzilliyin ikinci yarısında. Bakı, BDU, 20-04, 300 s.
5. Воспроизводство населения и демографическая политика в СССР. М.: Наука, 1987, 210 с.
6. Борисов В.А. Перспективы рождаемости. М.: Статистика, 1976, 204 ст.
7. Всесоюзная перепись населения 1970 г.: Сб. статей. Под ред. Г.М.Максимова, М.: 1976, 370 с.
8. ЦСУ Армянской ССР. Народное хозяйство Армянской ССР за 60 лет. Ереван: 1980. 285 с.
9. Всесоюзная перепись населения 1989 г. М., «Финансы и Статистика», 1987, с. 350.


**К ВОПРОСУ ВОСПРОИЗВОДСТВА НАСЕЛЕНИЯ АРМЯНСКОЙ ССР**


**Ш.Ф.ФАРАДЖОВ**


**РЕЗЮМЕ**


В данной работе изучен вопрос о воспроизводстве населения Армянской ССР в исследованный период. Данная постановка вопроса является основой нового научного направления в изучении населения Армянской ССР. Исследование посвящено непосредственно населению Армянской ССР и хронологические рамки исследования охватывают годы Советской власти 1920 до конца 1989 годов. Исследование народонаселения проведено на основе ряда источников, среди которых ведущие материалы составляют перепись населения в исследуемый период.

В процессе работы выявлены все материалы по Всесоюзным переписям 1926, 1937, 1939, 1959, 1970, 1979 и 1989 годов. Особое внимание более уделено депортациям азербайджанцев в 1948-1953 и 1988 года.


**TO A QUESTION REPRODUCTION OF THE POPULATION ARMENIAN SSR**


**S.F.FARADZHOV**


**SUMMARY**


In the given work the question on reproduction of the population Armenian SSR in researches the period is investigated. The given production of a question is a basis of a new scientific direction in studying the population Armenian SSR. Research is devoted not mediocrely to the population Armenian SSR. And chronological frameworks of research cover years soviet authorities from 1920 up to the end of 1989. Research of the population is lead on the basis of lines of sources, among which conducting?? Makes writer the population. In the period.

During work all materials on All-Union writer. 1926, 1937, 1939, 1959, 1970, 1979 and 1989 are revealed. The special attention боле is removed to deportations of azerbaijanians in 1948-1953, and 1988.